# AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİ

## ƏMR

№ 43

**Bakı şəhəri** „26” dekabr 2017 il

**“Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi”nin Tədbirlər Planının icrasını təmin edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi”nin (bundan sonra - Strateji Yol Xəritəsi) Tədbirlər Planının 2.3.3-cü bəndinin icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və “Azərenerji” ASC-nin nümayəndələrindən ibarət aşağıdakı tərkibdə İşçi Qrupu yaradılsın:

**İşçi Qrupunun sədri:**

Natiq Abbasov - Azərbaycan Respublikasının energetika nazirinin müavini

**İşçi Qrupunun üzvləri:**

| | |
|---|---|
| Amil Mürsəliyev- | Azərbaycan Respublikası Energetika Nazirliyinin Elektroenergetika şöbəsinin müdiri |
| Elxan Həşimov- | Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji siyasəti və yanacaq-enerji resusları şöbəsinin müdiri |
| Xalidə Məsimova- | Azərbaycan Respublikası Energetika Nazirliyinin Enerji səmərəliliyi, alternativ və bərpa olunan enerji mənbələri şöbəsinin müdiri |
| Rafiq Əliyev- | Azərbaycan Respublikası Energetika Nazirliyinin İqtisadiyyat, elm və innovasiya şöbəsinin müdiri |
| Rafiq İbrahimov- | Azərbaycan Respublikası Energetika Nazirliyinin Lisenziya və xüsusi icazələr şöbəsinin müdiri |
| İbrahim Ağayev- | Azərbaycan Respublikası Energetika Nazirliyinin Hüquqi münasibətlər şöbəsinin müdiri |
| Fazil Nağıyev- | Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət proqramlarının hazırlanması və icrasına nəzarət şöbəsinin müdiri |
| Cəmil Məlikov- | Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədr müavini |
| İlkin Şamilov- | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi və sosial sahələrin inkişafı şöbəsinin Qeyri-neft sahələrinin inkişafı sektorunun baş məsləhətçisi |
| Əli Abbasov - | "Azərenerji" ASC-nin Xarici İqtisadi Əlaqələr şöbəsinin rəisi |
| Rəna Əzimova- | Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İqtisadiyyat və Uçot Departamentinin İqtisadi Təhlil və Proqnozlaşdırma şöbəsinin rəisi |

2. İşçi Qrupuna tapşırılsın:

2.1. Müvafiq qurumlarla birlikdə ixrac imkanları araşdırılsın və ixrac potensialının reallaşdırılması üçün texniki-iqtisadi əsaslandırmalar hazırlansın.

2.2. İşçi Qrupu rübdə bir dəfə görülmüş işlərə dair hesabatın müzakirəyə çıxarılmasını təşkil etsin və müzakirələr zamanı səsləndirilən rəy və təklifləri nəzərə alaraq hesabatların vaxtında hazırlanmasını təmin etsin.

2.3. Görülən işlərlə bağlı hesabatı hər rüb hazırlayaraq energetika nazirinə təqdim etsin.

3. Ümumi şöbə (E. Rzayeva) bu əmrin surətini Nazirliyin şöbələrinə və aidiyyəti qurumlara çatdırılmasını təmin etsin.

4. Əmrin icrasına nəzarət Energetika nazirinin müavini Samir Vəliyevə həvalə olunsun.

**Əsas:** *Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli 1138 nömrəli Fərmanı, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin 2017-ci il 15 noyabr tarixli İN-X/O-14152/2017 nömrəli məktubu, Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində "Alternativ və bərpa olunan Enerji mənbələri üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsinin 2017-ci il 07 dekabr tarixli DA/04-15-611 nömrəli məktubu, "Azərenerji" ASC-nin 2017-ci il 13 noyabr tarixli 03/26/2075 nömrəli məktubu və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin 2017-ci il 20 dekabr tarixli SOCAR171000021630251613X00046 məktubu.*

**Nazir** **Pərviz Şahbazov**